*Oqtay RZA*

# ULU ÖNDƏR



Vətəndə Bütövlük görmək istədin,
Xalqıma əbədi bağlıyam, dedin;
"Dünyaya tanıdaq Azərbaycanı!" -
Ülvi arzulardan biri bu idi.

Səsin, bəyanatın dolaşdı Ərzi,
Özünlə gəzdirib xəritəmizi,
Sülhə harayladın, sülhə səslədin
Dinclik arzulayan beş qitəmizi.

Məşhur Amerika Konqresində
Cənablar etiraz duydu səsində:
- Qonşu pay istəyir torpağımızdan,
Susmasın ədalət, susmasın vicdan!

İqlimdən-iqlimə uzanan yollar,
Çoxsaylı nə hamar, nə asan yollar
Səni Hindistana, Çinə apardı,
Bakıya gətirib yenə apardı.

Olubsan qonağı neçə dost elin,
Nitqini dinləyib Çikaqo, Berlin;
Nitqini Buxarest, Roma dinləyib,
Narahat planet, səma dinləyib.

Ayrılıq hökmünü verəndə rüzgar
Həzin xəbərlərlə əsib küləklər;
İndi həmişəlik cüt ünvanın var -
Biri Xiyabandır, biri ürəklər!

Ədalət.2018.12 dekabr.S.1.